# Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bunun təməlində çevik islahatlar dayanır

**Bu bir faktdır ki, son illər Azərbaycan həm bölgədə, həm də dünyada böyük nüfuz qazanmış sürətli inkişaf edən ölkələr sırasına daxil edilmişdir. O da bəllidir ki, müstəqil respublikamızın inkişaf strategiyası ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış və bu gün bu strateji kursu uğurla davam etdirən Prezident İlham Əliyev ölkəmizin sürətli tərəqqisini təmin etmişdir. Ölkə rəhbərinin Azərbaycan dövlətinin hərtərəfli inkişafına, xalqın rifahının yüksəldilməsinə yönəlmiş sosial-iqtisadi siyasəti son 10 ildə və eləcə də yola saldığımız 2014-cü ildə də öz müsbət nəticələrini vermişdir. Azərbaycanın bütün sahələrdə qazandığı nailiyyətlərin fonunda isə iqtisadi qüdrətimiz durur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində deyilir: "2014-cü ildə iqtisadi inkişaf təmin edilmişdir. Bu da çox önəmlidir, çünki bildiyiniz kimi, dünyada hələ də iqtisadi, maliyyə böhranı davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bu inkişafın təməlində islahatlarımız dayanır".**

Müstəqil Azərbaycanın yeritdiyi siyasətin əsas məzmunu və mahiyyəti ondan ibarətdir ki, xalqımızın, dövlətimizin maraq və mənafeyi, rifahı və gələcək inkişafı istiqamətində addımlar atılır və bu yöndə bütün imkanlar səfərbər edilir. Bütün bunlar ölkəmizin qazandığı nailiyyətlər sırasına daxildir. Əldə olunan nailiyyətləri bugünkü gözəl həyatımız, qısa müddətdə, sosial-iqtisadi inkişafımız, ictimai-siyasi sabitlik, mövcud vətəndaş həmrəyliyi və beynəlxalq aləmdə artan nüfuzumuz sübut edir. Böyük öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan yalnız yüksələn xətlə inkişaf edib. Bu yüksəliş tempinə 1994-cü ildən start verilmişdir. Həmin il yeni neft strategiyasının həyata keçirilməsi iqtisadi inkişafımızda həlledici amil olmuşdur. Böyük öndər o illəri belə xarakterizə edərək demişdir: "Bizim iqtisadi kursumuz dünya iqtisadi birliyinə sıx inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan müstəqil, demokratik, hüquqi dövlət qurmaqdır. Bu yolda uğurlar qazanmış ölkəmizdə keyfiyyətcə yeni istehsal münasibətləri bazasında özəl mülkiyyət və sahibkarlığa əsaslanan istehsal, maliyyə və idarəçilik münasibətləri formalaşdırdıq". Məhz bu kursu yeni müasir tələblər səviyyəsində uğurla davam etdirən dövlət başçımız 11 illik fəaliyyəti dövründə bir çox ciddi nailiyyətlərə imza atmışdır. Bu uğurlar həm ölkəmizin ümumi həyatında, həm də insanların şəxsi həyatında hiss olunur.

Hər bir ölkənin inkişafının göstəricisi, təbii ki, ilk olaraq statistik rəqəmlərdə ifadə olunur. Ümumi daxili məhsulun artımı, sənaye və kənd təsərrüfatı istehsalının yüksəlməsi, yeni iş yerlərinin açılması, bazar iqtisadiyyatına keçid, bütövlükdə əhalinin real gəlirlərinin artması, rifahının yaxşılaşması və sair kimi faktorlar dövlətimizin inkişafının göstəricisidir.

2014-cü ildə Azərbaycan sosial-iqtisadi sahədə qazandığı uğurlarla yadda qalacaqdır. Ötən il Azərbaycanın dövlət büdcəsi təxminən 25 milyard dollar səviyyəsində olub və Cənubi Qafqazın ümumi büdcəsinin 76 faizini təşkil edib. 2014-cü ilin 10 ayı ərzində ümumi daxili məhsul (ÜDM) istehsalı 2,8 faiz, qeyri-neft sektoru isə 6,6 faiz artıb. Ölkəmizin valyuta ehtiyatları 53 milyard dollar səviyyəsinə çatıb. Hazırda Azərbaycanın xarici borclarının ÜDM-ə nisbəti cəmi 8,5 faiz səviyyəsindədir ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab edilir.

Dövlət başçısı cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, həyata keçirilən siyasətin, görülən bütün işlərin başlıca məqsədi ölkə əhalisinin rifahının yaxşılaşmasıdır. Prezident İlham Əliyev ötən ilin son günündə Azərbaycan xalqına təbrikində bildirmişdir ki, ölkəmizdə inflyasiya 1,4 faizdir. Əhalinin pul gəlirlərinin artımı isə 5 faizə yaxındır. Maaşların, pensiyaların, sosial müavinətlərin ildən-ilə artırılması əlbəttə ki, insanların rifah halını yaxşılaşdırır.

Yenə ötən ilin statistikasına nəzər salaq. 2014-cü il ərzində işsizliyin səviyyəsi 5,2 faizə, yoxsulluq isə 5 faizə düşüb. Bu göstəricilərə görə Azərbaycan dünyanın inkişaf etmiş bir çox ölkəsini geridə qoyub. Ötən ilin 10 ayı ərzində əhalinin gəlirləri 4,7 faiz artaraq 33,6 milyard manat olub.

Əhalinin hər bir nəfərinə düşən gəlir 3,4 faiz çoxalaraq 3600 manata, orta aylıq əmək haqqı isə 5,5 faiz yüksələrək 450 manata çatıb. İnflyasiya cəmi 1,5 faiz təşkil etməklə əhalinin gəlirlərindən bir neçə dəfə aşağı olub. Bu isə onu deməyə əsas verir ki, makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində görülən tədbirlər çox yaxşı nəticə verib.



Azərbaycanda sənayeyə yeni yanaşmalar uğurla tətbiq edilir, sənaye potensialı ildən-ilə güclənir. Ölkə rəhbərinin təşəbbüsü ilə 2014-cü ilin "Sənaye ili" elan edilməsi bu sahənin inkişafına yeni təkan vermişdir. Belə ki, il ərzində bu sahədə rəqabətliliyin artırılması, kadr potensialının səviyyəsinin yüksəldilməsi müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı işlər həyata keçirilmişdir. Ötən il 230-dan çox, o cümlədən 40-dan çox orta və iri sənaye müəssisəsi açılmışdır. Bu da öz növbəsində işsizliyin aradan qaldırılmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, 2004-cü ildən bəri ölkəmizdə 2 milyondan çox yeni iş yeri yaradılmışdır ki, bunun da çoxu daimidir.

Ötən il respublikamızda sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılıb. Ölkədə sahibkarlıq subyektlərimizin sayı 2,7 dəfə artıb. Məşğulluqda özəl sektorun payı 74 faizə, vergi daxilolmalarında isə 72,4 faizə yüksəlib. Ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 82,5 faizə çatıb. 2014-cü ildə sahibkarlığın inkişafına əvvəlki ilə nisbətən daha çox – 295 milyon manat güzəştli kredit verilib. Bu kredit hesabına 5570-ə yaxın sahibkarlıq subyektinin investisiya layihəsi maliyyələşdirilib. Bu layihələrin reallaşdırılması 12500-dən çox yeni iş yerinin açılmasına imkan yaratmışdır.

Son 11 il ərzində ölkə başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlər regionların sosial-iqtisadi inkişafı və sahibkarlığın dinamik inkişafı baxımından uğurlu nəticələr vermişdir. Hələ 11 fevral 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı ilk Dövlət Proqramını imzalayan dövlət başçısı bu mühüm sənəddə nəzərdə tutulmuş tədbirlərin 2008-ci ilədək uğurla gerçəkləşdirilməsini təmin etmişdir. Bunun davamı kimi, 2009-cu il aprelin 14-də imzalanmış ikinci regional Dövlət Proqramı da qısa müddətdə iri şəhərlərlə rayonlar, kəndlər arasındakı kəskin fərqlərin əhəmiyyətli dərəcədə aradan qaldırılmasına təkan vermişdir. 2014-cü il fevralın 27-də imzalanmış "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda regionların sosial-iqtisadi, sahibkarlığın tərəqqisi baxımından indiyədək həyata keçirilmiş tədbirlərin uğurlu davamına təminat yaratmışdır.

Əlbəttə, hər bir dövlətin inkişaf səviyyəsi müəyyənləşdirilərkən beynəlxalq təşkilatların, maliyyə qurumlarının hesabatları nəzərə alınır. Məhz burada tərtib olunmuş reytinq sıralamalarında dövlətlərin inkişafının ilkin göstəricisi qismində investisiya cəlbetmə baxımından hansı üstünlüyə malik olması təsvir edilir. Bu baxımdan, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi inkişaf kursunun nəticəsi olaraq Azərbaycan iqtisadi sahədə keçid dövrünü arxada qoymuşdur. Təsadüfi deyil ki, dünyanın ən mötəbər iqtisadi qurumu olan Davos Ümumdünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Bu da gənc, müstəqil bir dövlət üçün çox mühüm bir göstəricidir.

Ümummilli liderin əsasını qoyduğu siyasi kursun ötən 11 il ərzində Prezident İlham Əliyev tərəfindən böyük əzmlə və məharətlə həyata keçirilməsi nəticəsində bu gün müstəqil Azərbaycan demokratik və bəşəri dəyərlərin bərqərar olduğu məkan, dünya birliyinin layiqli üzvü, davamlı inkişaf edən, dayanıqlı iqtisadiyyata malik ölkədir. Siyasi və iqtisadi qüdrəti daim artan Azərbaycan bu gün regionun bütün siyasi və iqtisadi məsələlərinin həllində əvəzolunmaz iştirakçı, əsas söz sahibidir. Əgər 2004-cü ildə müstəqil respublikamızın iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 50 faizini təşkil edirdisə, bu gün ölkəmizin payı 78 faizi ötüb. Azərbaycanın iştirakı olmadan regionda heç bir enerji və digər mühüm iqtisadi layihələr həyata keçirilə bilməz. Dövlət başçısının sosial-iqtisadi inkişaf strategiyasının ən səciyyəvi cəhətlərindən biri də bu konsepsiyanın elmi əsaslara söykənməsi, hər bir sahənin inkişafı üçün konkret hədəf və məqsədlərin, onlara nail olunmaq yollarının dəqiq müəyyən edilməsidir. Təsadüfi deyil ki, son 11 il ərzində 174 Dövlət proqramı təsdiq edilib. Onlardan 104-ü tam icra olunub, digərləri isə icra edilməkdədir. Bu proqramların uğurlu icrası nəticəsində iqtisadiyyatın bütün sahələri dinamik inkişaf edib, ümumi daxili məhsul 3 dəfə artıb. Artıq 6 ildən çoxdur ki, dünyada siyasi, iqtisadi, sosial kataklizmlərlə müşayiət olunan böhran proseslərinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı davamlı inkişaf edir, qarşıya qoyulmuş məqsədlərə nail olunur, nəzərdə tutulmuş bütün işlər yerinə yetirilir.

Ötən dövrdə Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb. Dünyanın müasir tarixində öz iqtisadiyyatını 11 il ərzində bu qədər artırmağa nail olmuş ikinci bir ölkəni nümunə göstərmək mümkün deyil. Bu illər ərzində Azərbaycanda həyat bütünlüklə dəyişib. İnsanların yaşayış səviyyəsinin artması ilə yanaşı, ölkəmizin siması yenilənib. Hazırda respublikamızın təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələr bölgənin iqtisadi mənzərəsində yeni korrektələr edir. Bir sözlə, ölkəmiz ciddi regional faktora çevrilib.

Bu gün ölkəmizdə həyata keçirilən siyasətin başlıca məqsədi modernləşmə mərhələsini sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik ideallarıın cəmiyyətdə möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir. Ümumilikdə, yeni mərhələni daha çox bazar münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, modernləşmə strategiyasının reallaşdırılması mərhələsi kimi səciyyələndirmək olar. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, məqsəd Azərbaycanda 2020-ci ilədək ümumi daxili məhsulun 2 dəfəyədək artımına, 2018-ci ildən bütün sosial problemlərin həllinə nail olmaq, sistem islahatlarını başa çatdırmaqdır. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası məhz bu və digər məqsədlərin reallaşdırılması baxımından sosial-iqtisadi, siyasi və hüquqi platforma rolunu oynayır.

Vurğulamaq olar ki, 2015-ci il Azərbaycan üçün hər bir sahədə böyük perspektiv vəd edir. Bunun üçün möhkəm bünövrə var və iqtisadiyyatımızın inkişafı da davamlı olacaq. Qeyd etmək lazımdır ki, ölkəmizin iqtisadiyyatı neft və qazdan asılı deyil, amma neft və qazın istehsalı və ixracı iqtisadiyyatın inkişafına mühüm töhfələr verir. Eyni zamanda, neft və qazdan əldə edilən gəlirlər qeyri-neft sektorunun inkişafına yönəldilir ki, bu da inkişafı təmin edən mühüm amillərdən biri kimi dəyərləndirilməlidir.

Əminliklə demək lazımdır ki, dövlət başçımızın rəhbərliyi ilə inamla və qətiyyətlə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası gələcək dövr üçün dayanıqlı inkişafın möhkəm təməlinin yaradılmasına, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsinə, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasına imkan verib. Heç şübhəsiz ki, bu istiqamətdə işlər 2015-ci ildə də uğurla davam etdiriləcəkdir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**